## Eldar Baxışın çap olunmayan şeirləri



### SƏNƏ

1

Yer olam, yerlim olasan,
Göy olam, göylüm olasan.
Heç nəyə meylim olmaya,
Hər şeyə meylim olasan.

Kim ulduz əkib, gün dərib? -
Bu dünya qürbət, mən qərib.
Məni Məcnuna döndərib,
Özün də Leylim olasan.

Demə, sən bağ, mən hasaram,
Demə, sən tərlan, mən saram, -
Səni bağrıma basaram
Lap belə ölüm olasan.

2

Xoş gəlib bu görüşümüz,
Xoş dayanıb aramızda.
Bu əl mənim, o əl sənin
Boş dayanıb aramızda.

Bu yeri ya dağıt, ya düz,
Əl at göydən Gün üz, Ay üz,
Sən bir yazsan, mən bir payız,
Qış dayanıb aramızda.

Vaxt var, əyləyə bilmirəm,
Gül var, iyləyə bilmirəm,
Heç nə eyləyə bilmirəm,
Yaş dayanıb aramızda.

3

Bu aranı açmaq gərək,
Ara neyləsin, neyləsin?
Gül deyir ki, gül deyiləm,
Arı neyləsin, neyləsin?

Dənizlə güləşən balıq,
Sahildə ilişən balıq,
Dəmir tora düşən balıq,
Tora neyləsin, neyləsin?

Mən demirəm, sən de, fələk,
İndi açılmayan ürək,
İndi deyilməyən dilək
Sonra neyləsin, neyləsin?

4

Mən qırxımı adlamışam,
Qız sən otuza gedirsən...
Mən bir ulduza gedirəm,
Sən bir ulduza gedirsən.

Bu da bir şair sözüdü -
Bir düz var, Tale düzüdü,
Bənövşə, Lalə düzüdü,
Sən də o düzə gedirsən.

Mən qorxu, hədə bilmərəm,
Mən səni güdə bilmərəm,
Mən duza gedə bilmərəm,
Sən hələ duza gedirsən.

5

Ora-bura baxma belə,
Sən zamanın gücünə bax
Zaman o durna köçüdü
Sən o durna köçünə bax.

Bir az o düzdən aparır,
Bir az bu sözdən aparır,
Bir az da bizdən aparır,
Əkinə bax, biçinə bax...

Bu sevgi nə, bu ölçü nə,
Bu ölçü nə, bu biçi nə?
Baxma gözümün içinə,
Ürəyimin içinə bax.

6

Qurban olum Yaradana,
Belə gözəl qız yaradıb.
Səni bir az gec yaradıb,
Məni bir az tez yaradıb.

Səni mənə tuş eləyib,
Məni sənə tuş eləyib,
Bircəcə pis iş eləyib,
Üstümüzdə göz yaradıb.

Dodağa bax, yan içində,
Yanağa bax qan içində.
Ürək boyda can içində,
Sevgi boyda söz yaradıb.

7

Söz dilimin ucundadı,
Sözü deyə bilmirəm mən.
Səni necə sevdiyimi
Düzü, deyə bilmirəm mən.

Demə, qorxuram, ürkürəm,
Mən bir Araz, mən bir Kürəm.
Dərd var içimdə çəkirəm,
Üzə deyə bilmirəm mən.

Bu yadların arasında,
Bu odların arasında,
Bu qurdların arasında
Quzu deyə bilmirəm mən.

8

Gözüm gözünə sataşa,
Görəsən gözüm nə deyir.
Üzümü qoyam üzünə,
Görəsən üzüm nə deyir.

Həm belə əzizlənəsən,
Həm də qaçıb gizlənəsən?!
Mənim kimi közlənəsən,
Görəsən közüm nə deyir?

Mənim üz-gözüm danışa,
Alovum-közüm danışa,
Səndə o dözüm danışa,
Görəsən dözüm nə deyir...

9

Mən üzdəyəm, bir Eldar var
Hələ məndən içəridə,
Bu dünya məndən çöldədi,
Tale məndən içəridə.

Sevinc gəlir, qəm bilirəm,
Bu bir qəmi min bilirəm,
Nə çəkirəm, mən bilirəm -
Şələ məndən içəridə.

Mən birin içində minəm,
Mən sevinc içində qəməm,
Mən Kərəm oğlu Kərəməm,
Lələ məndən içəridə.

10

Dərdlərimi bölüşürəm,
Birin evə, birin işə...
Bulud gələ göy üzünə,
İsti hava sərinləşə.

Sənə olan təmiz sevgim,
Lalə sevgim, nərgiz sevgim,
Dərya sevgim, dəniz sevgim
Dayazdırsa, dərinləşə.

Gəzib-gəzib tapam səni
Gözlərimə təpəm səni,
Tutiya tək öpəm səni,
Acı ağzım şirinləşə.

11

Sənin dodağın, bax, çiçək,
Mənim dodağım, bax, arı.
Çiçək orda, arı burda,
Bu da dünyanın axırı.

Uca boyum bəstə olub,
Sağlam canım xəstə olub,
Mənim ahım tüstü olub,
Mənim bədənim buxarı.

Məndən xanım, ağa dönüb,
Dəniz dönüb, dalğa dönüb,
Həsrətimiz dağa dönüb,
Qalxıb göylərdən yuxarı.

12

Elə bil ki, mən ovçuyam,
Elə bil ki, sən laçınsan.
Göz yaşın gözündən qaçır,
Sən də ki, məndən qaçırsan.

Aramızda yol az deyil,
Yol içində kol az deyil,
Ürək axı palaz deyil,
Niyə ağzımı açırsan.

Mən həm o dağam, həm bu dağ,
Mən həm o tağam, həm bu tağ,
Sevgi ağacdı, mən budaq,
Sən üstümüzdə puçursan.

13

Sevgi bitmir, istək bitmir,
Neynirəm bu şoran yeri.
Mənim könlüm dağ yeridi,
Sənin könlün aran yeri.

Toxum ver əkə bilirəm,
Ağrı ver çəkə bilirəm,
Özümə qiblə bilirəm
Sən o yatıb-duran yeri.

Sənin o evin-eşiyin,
Sənin o itin pişiyin,
Sənin o yorğan-döşəyin,
Dünyanın qurtaran yeri.

14

Sən say saydığını, canım,
Gör, indi fələk nə sayır.
Kim bilir ülgüc nə sayır,
Kim bilir dəllək nə sayır?!

Yeyib min il yediyini,
Deyib min il dediyini, -
Şaqqıldadır dimdiyini,
Ağacda leylək nə sayır?!

Dünya səhradı, biz nərik,
Min ildi gedib gəlirik,
Şeytan nə sayır bilirik,
Bilmirik mələk nə sayır.

15

Çəkib aparır qarışqa.
Dəni aldada-aldada.
Sən də çəkib aparırsan,
Məni aldada-aldada.

Öz sözünü yeridir su, -
İçəridən əridir su,
İrədir su, çürüdür su
Çəni aldada-aldada.

Səhər günü götürür dağ,
Axşamacan gətirir dağ -
Axşam qətlə yetirir dağ
Günü aldada-aldada.

16

Nə uzağıq, nə yaxınıq,
Uzaq yalan, yaxın yalan.
Söz deyirsən sözün yalan,
Ah çəkirsən ahın yalan.

Bir vaxt məni gördüyün o,
Mənə üz çevirdiyin o,
Mənə könül verdiyin o
Gecə yalan, yuxu yalan.

Bu gedən ümid cığırı,
Dərdə dirənib axırı,
Hamının Allahı doğru,
Bir sənin Allahın yalan.

17

O sənin yalan Allahın,
Sevgini doğru eləyib.
Yandırıb mənim bağrımı
Lalənin bağrı eləyib.

Nə istəsəm var qoynunda,
Qar sinəndə, qar qoynunda, -
Bostan əkib yar qoynunda,
Şamama - uru eləyib.

Bu dünyanın ən yazığı -
Su yazığı, dən yazığı,
Bu yaşımda mən yazığı
Bostanda oğru eləyib.

18

Bəri bax, bostan yiyəsi,
Bax canıma, bax şələmə.
Daha gəl bu dövran kimi
Bir dərdimi beş eləmə.

İtiyim var, yay itiyi, -
Mənim sinəm dağ ətəyi,
Könlüm bir arı pətəyi,
Bu pətəyi eşələmə.

Mən sənə bir söz deyəndə,
O bir sözü yüz deyəndə,
Cavabını gözləyəndə
Buynuzunu şeşələmə.

Dərd nədi, qanan adamı,
Sevinci danan adamı,
Onsuz da yanan adamı
Suya salıb pörşələmə...

19

Quş qonub budaq üstünə,
Quşun sözü budaqladı.
Şır-şırın yanı yarpızdı,
Yarpız şır-şır bulaqladı.

Sən az məni üz, - söylədim.
Ayrılığa döz, - söylədim.
Mən könlümə söz söylədim,
Könlüm səni soraqladı.

Uçdum gəldim zöhrə kimi,
O sən deyən yerə kimi,
Həsrətimiz pöhrə kimi,
Ağac kimi yarpaqladı.